AZƏRBAYCAN MÜƏLLİMİ
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN ORQANI
TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR! Heydər ƏLİYEV



ARXİV 4 Aprel 2014 - №12

## "ADA" Universitetində Birinci Beynəlxalq elmi konfrans keçirilib



Aprelin 1-də "ADA" Universitetində "Kitabxana-informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi" mövzusunda Birinci Beynəlxalq elmi konfrans öz işinə başlamışdır.

AzərTAc xəbər verir ki, bu ali məktəbin Mədəniyyət və Turizm Nazirliyi ilə birgə təşkil etdiyi konfransı açan "ADA" Universitetinin rektoru Hafiz Paşayev artıq 8 ildir fəaliyyət göstərən təhsil müəssisəsinin yaradılmasına elə kitabxanadan başlandığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, niyyətimizin birinci mərhələsi həyata keçmişdir. Hazırda kitabxana kampusun mərkəzindədir və burada dünya təcrübəsinin ən yaxşı nailiyyətləri tətbiq olunmuşdur.

Hər bir elm və təhsil ocağının əsas hissəsinin kitabxana olduğunu deyən rektor Hafiz Paşayev müasir dövrdə kitabxananın rolu və iş üslubunun çox dəyişdiyini diqqətə çatdırmışdır. Rektor konfransın keçirilməsi təşəbbüsünü dəstəkləyən Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirmişdir.

Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev konfransın keçirilməsini ölkəmizdə kitabxana-informasiya şəbəkəsinin inkişafına yönələn mühüm təşəbbüs kimi yüksək qiymətləndirmişdir.

Nazir qeyd etmişdir ki, kitabxana şəbəkəsi təkcə paytaxtda deyil, Azərbaycanın hər rayonunda və kəndində mövcuddur. Dövlətin məqsədi ölkə üzrə bütün sahələrin inkişafının kitabxana şəbəkəsi vasitəsilə yerlərə çatdırılması və bu şəbəkənin insanların tələbatına cavab verən bir formatda fəaliyyət göstərməsidir. Hazırda Azərbaycanda fəaliyyət göstərən 11 min kitabxanadan təqribən 4 minə yaxını nazirliyin şəbəkəsinə daxildir.

Vurğulanmışdır ki, Prezident İlham Əliyevin 2008-ci il 6 oktyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" müvafiq istiqamətdə çox böyük işlərin həyata keçirilməsinə, kitabxana işini tamamilə yeni səviyyəyə qaldırmağa imkan yaratmışdır. Hazırda növbəti proqramın hazırlandığını deyən nazir görülən işlərin nəticəsi olaraq "kitabxana" anlayışının öz əvvəlki rəflərdə kitabların saxlanması çərçivəsindən çıxaraq kitabxana-informasiya mərkəzi məzmunu kəsb etdiyini diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, respublika üzrə rayonların yarısından çoxunda artıq kitabxana-informasiya şəbəkəsi fəaliyyət göstərir.

Azərbaycan Milli Kitabxanasının bu sahə üzrə beynəlxalq qurumlar arasında öz fəallığı ilə seçildiyini qeyd edən nazir burada ən müasir standartların tətbiq olunduğunu bildirmişdir. Müasir dövrdə kitabxananın İnternet vasitəsilə oxucu auditoriyasının genişləndiyini deyən natiq ötən il ilk dəfə Azərbaycanda milli İnternet kitabxana şəbəkəsinin yaradıldığını diqqətə çatdırmışdır.

"ADA" Universitetinin tədris işləri üzrə prorektoru, doktor Patrik Kvin hər bir ideyanın mərkəzində kitabxananın durduğunu, kitabxanasız inkişafın mümkünsüzlüyünü qeyd etmiş, bu gün müvafiq sahənin yeni formatda xidmət göstərməsinin əhəmiyyətindən söhbət açmışdır.

Çıxışlarda beynəlxalq elmi konfransın sessiyalarında müzakirə ediləcək mövzuların bu istiqamətdə inkişafa və əməkdaşlığa öz töhfəsini verəcəyinə inam ifadə olunmuşdur.

Sonra konfrans işini sessiyalarla davam etdirmişdir.

Beş sessiyadan ibarət konfrans müasir kitabxanalarda informasiya xidməti, kitabxanalarda tədris və tədqiqat işlərinin düzgün istiqamətləndirilməsi, rəqəmsal elmlər, kitabxanaların rəqəmsallaşdırılması və digər mövzuları əhatə edir.

Konfransın birinci günündə "Müasir kitabxanalarda informasiya xidmətləri", "Kitabxanalarda tədris və tədqiqat qlobal elmi-tədqiqat cəmiyyətinin bir hissəsi kimi", "Onlayn informasiyaya ümumçıxış" mövzuları üzrə sessiyalarında çıxışlar dinlənilmiş və müzakirələr aparılmışdır.

Beynəlxalq konfransda Böyük Britaniyanın Aberisvits Universitetinin kitabxana xidmətinin rəhbəri Culiya Hart, Qazaxıstanın Nazarbayev adına Universiteti kitabxanasının meneceri Cim Agee, Tbilisi Dövlət Universitetinin rektoru İrakli Qaribaşvili və Azərbaycanın ali məktəblərinin və digər kitabxanaların nümayəndələri iştirak edirlər.

Aprelin 2-də konfrans işini davam etdirib.